**“Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı”nın təsdiq edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 31 yanvar tarixli 2643 nömrəli Sərəncamının 3-cü bəndinin icrasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

~~1. “Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı” təsdiq edilsin (əlavə olunur).~~[2]

2. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının Təsnifatı" təsdiq edilsin(əlavə olunur).

3. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Təsnifatı" təsdiq edilsin (əlavə olunur).

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 12 yanvar 2009-cu il
№ 8

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 12 yanvar tarixli 8 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının)**

**TƏSNİFATI**[3]

| Sıra №-si | İxtisasların (proqramların) şifri və adı | |
|---|---|---|
| | **1. TƏHSİL İXTİSASLARI QRUPU** | |
| 1. | 050101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi |
| 2. | 050102 | Dil və ədəbiyyat müəllimliyi (dillər üzrə) |
| 3. | 050103 | Xarici dil müəllimliyi (dillər üzrə) |
| 4. | 050104 | Fizika müəllimliyi |
| 5. | 050105 | Riyaziyyat və informatika müəllimliyi |
| 6. | 050106 | Riyaziyyat müəllimliyi |
| 7. | 050107 | Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə) |
| 8. | 050108 | Texnologiya müəllimliyi |
| 9. | 050109 | Musiqi müəllimliyi |
| 10. | 050110 | Biologiya müəllimliyi |
| 11. | 050111 | Kimya müəllimliyi |
| 12. | 050112 | Kimya və biologiya müəllimliyi |
| 13. | 050113 | Tarix müəllimliyi |
| 14. | 050114 | Tarix və coğrafiya müəllimliyi |
| 15. | 050115 | Coğrafiya müəllimliyi |
| 16. | 050116 | İnformatika müəllimliyi |
| 17. | 050117 | Təsviri incəsənət müəllimliyi |
| 18. | 050118 | İbtidai sinif müəllimliyi |
| 19. | 050119 | Korreksiyaedici təlim |

| | | |
|---|---|---|
| 20. | 050120 | Məktəbəqədər təlim və tərbiyə |
| 21. | 050121 | Təhsildə sosial-psixoloji xidmət |
| *21-1.* | *050122* | *Rəqs müəllimliyi*[4] |
| **2. HUMANİTAR VƏ SOSİAL İXTİSASLAR QRUPU** | | |
| 22. | 050201 | Filologiya (dil və ədəbiyyat göstərilməklə)[5] |
| 23. | 050202 | Fəlsəfə |
| 24. | 050203 | Tərcümə (dillər üzrə) |
| 25. | 050204 | Jurnalistika |
| 26. | 050205 | Kitabşünaslıq |
| 27. | 050206 | Tarix |
| 28. | 050207 | Antropologiya |
| 29. | 050208 | Politologiya |
| 30. | 050209 | Psixologiya |
| 31. | 050210 | Sosiologiya |
| 32. | 050211 | Regionşünaslıq (regionlar üzrə) |
| 33. | 050212 | Hüquqşünaslıq |
| 34. | 050213 | Beynəlxalq münasibətlər |
| 35. | 050214 | Dinşünaslıq |
| 36. | 050215 | Kitabxanaçılıq və informasiya |
| 36-1.[6] | 050216 | Dövlət və ictimai münasibətlər |
| *36-2.* | *050217* | *İslamşünaslıq*[7] |
| **3. MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT İXTİSASLARI QRUPU** | | |
| 37. | 050301 | Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması |
| 38. | 050302 | Sənətşünaslıq |
| 39. | 050303 | İnstrumental ifaçılıq |
| 40. | 050304 | Solo oxuma |
| 41. | 050305 | Dirijorluq |
| 42. | 050306 | Bəstəkarlıq |
| 43. | 050307 | Musiqişünaslıq |

| | | |
|---|---|---|
| 44. | 050308 | Xoreoqrafiya sənəti *(sahələr üzrə)*[8] |
| 45. | 050309 | Estrada sənəti |
| 46. | 050310 | Xalq çalğı alətləri ifaçılığı |
| 47. | 050311 | Aktyor sənəti |
| 48. | 050312 | Dekorativ sənət |
| 49. | 050313 | Teatrşünaslıq |
| 50. | 050314 | Bədii yaradıcılıq və ekran dramaturgiyası |
| 51. | 050315 | Rejissorluq |
| 52. | 050316 | Kinoşünaslıq |
| 53. | 050317 | Operator sənəti |
| 54. | 050318 | Rəngkarlıq |
| 55. | 050319 | Qrafika |
| 56. | 050320 | Heykəltəraşlıq |
| 57. | 050321 | Dizayn |
| **4. İQTİSADİYYAT VƏ İDARƏETMƏ İXTİSASLARI QRUPU** | | |
| 58. | 050401 | Dünya iqtisadiyyatı |
| 59. | 050402 | Mühasibat uçotu və audit |
| 60. | 050403 | Maliyyə |
| 61. | 050404 | İqtisadiyyat |
| 62. | 050405 | Sənayenin təşkili və idarə olunması |
| 63. | 050406 | Statistika |
| 64. | 050407 | Menecment |
| 65. | 050408 | Marketinq |
| 66. | 050409 | Biznesin idarə edilməsi |
| 67. | 050410 | Dövlət və bələdiyyə idarəetməsi |
| 68. | 050411 | Kommersiya |
| *68-1.*[9] | *050412* | *Davamlı inkişafın idarə edilməsi* |
| **5. TƏBİƏT İXTİSASLARI QRUPU** | | |
| 69. | 050501 | Riyaziyyat |

| | | |
|---|---|---|
| 70. | 050502 | Mexanika |
| 71. | 050503 | Fizika |
| 72. | 050504 | Kimya |
| 73. | 050505 | Biologiya |
| 74. | 050506 | Coğrafiya |
| 75. | 050507 | Hidrometeorologiya |
| 76. | 050508 | Geologiya |
| 77. | 050509 | Kompüter elmləri |
| 78. | 050510 | Ekologiya |
| **6. TEXNİKİ VƏ TEXNOLOJİ İXTİSASLAR QRUPU** | | |
| 79. | 050601 | Materialşünaslıq mühəndisliyi |
| 80. | 050602 | Geologiya mühəndisliyi |
| 81. | 050603 | Hidrogeologiya mühəndisliyi |
| 82. | 050604 | Geofizika mühəndisliyi |
| 83. | 050605 | Dağ-mədən mühəndisliyi |
| 84. | 050606 | Neft-qaz mühəndisliyi |
| 85. | 050607 | Neft-qaz qurğuları mühəndisliyi |
| 86. | 050608 | Elektroenergetika mühəndisliyi |
| 87. | 050609 | İstilik energetikası mühəndisliyi |
| 88. | 050610 | Enerji maşınqayırması mühəndisliyi |
| 89. | 050611 | Metallurgiya mühəndisliyi |
| 90. | 050612 | Maşın mühəndisliyi |
| 91. | 050613 | Avianəqliyyat istehsalatının təşkili mühəndisliyi |
| 92. | 050614 | Aviasiya texnikası avadanlıqlarının istismarı mühəndisliyi |
| 93. | 050615 | Hava nəqliyyatının hərəkətinin idarə olunması mühəndisliyi |
| 94. | 050616 | Uçuş mühəndisliyi |
| 95. | 050617 | Hava nəqliyyatında texnoloji proseslərin və istehsalatın təhlükəsizliyi mühəndisliyi |
| 96. | 050618 | Gəmiqayırma və gəmi təmiri mühəndisliyi |

| | | |
|---|---|---|
| ~~97.~~ | ~~050619~~ | ~~Gəmi energetik qurğularının istismarı mühəndisliyi~~ |
| ~~98.~~ | ~~050620~~ | ~~Dəniz naviqasiyası mühəndisliyi~~[10] |
| ~~99.~~ | ~~050621~~ | ~~Dəmiryol nəqliyyatı və təsərrüfatı mühəndisliyi~~ |
| ~~100.~~ | ~~050622~~ | ~~Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi~~ |
| ~~101.~~ | ~~050623~~ | ~~Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi~~ |
| ~~102.~~ | ~~050624~~ | ~~Cihazqayırma mühəndisliyi~~ |
| ~~103.~~ | ~~050625~~ | ~~Texnoloji maşın və avadanlıqlar mühəndisliyi~~ |
| ~~104.~~ | ~~050626~~ | ~~Elektrik mühəndisliyi~~ |
| ~~105.~~ | ~~050627~~ | ~~Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi~~ |
| ~~106.~~ | ~~050628~~ | ~~Proseslərin avtomatlaşdırılması mühəndisliyi~~ |
| ~~107.~~ | ~~050629~~ | ~~Mexatronika və robototexnika mühəndisliyi~~ |
| ~~108.~~ | ~~050630~~ | ~~Mexanika mühəndisliyi~~ |
| ~~109.~~ | ~~050631~~ | ~~Kompüter mühəndisliyi~~ |
| ~~110.~~[11] | ~~050632~~ | ~~İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi~~ |
| ~~111.~~ | ~~050633~~ | ~~Memarlıq~~ |
| ~~112.~~ | ~~050634~~ | ~~İnşaat mühəndisliyi~~ |
| ~~113.~~ | ~~050635~~ | ~~Mühəndis sistemlərinin və qurğularının tikintisi mühəndisliyi~~ |
| ~~114.~~ | ~~050636~~ | ~~Nəqliyyat tikintisi mühəndisliyi~~ |
| ~~115.~~ | ~~050637~~ | ~~Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi~~ |
| ~~116.~~ | ~~050638~~ | ~~Tikinti materialları və məmulatlarının texnologiyası mühəndisliyi~~ |
| ~~117.~~ | ~~050639~~ | ~~Meşə materiallarının və ağac emalının texnologiyası mühəndisliyi~~ |
| ~~118.~~ | ~~050640~~ | ~~Geodeziya və xəritəçilik mühəndisliyi~~ |
| ~~119.~~ | ~~050641~~ | ~~Kimya mühəndisliyi~~ |
| ~~120.~~ | ~~050642~~ | ~~Qida məhsulları mühəndisliyi~~ |
| ~~121.~~ | ~~050643~~ | ~~Çoxişlənən malların texnologiyası mühəndisliyi~~ |
| ~~122.~~ | ~~050644~~ | ~~İstehlak mallarının ekspertizası və marketinqi~~ |
| ~~123.~~ | ~~050645~~ | ~~Poliqrafiya mühəndisliyi~~ |
| ~~124.~~ | ~~050646~~ | ~~Təkrar emal və bərpa texnologiyaları mühəndisliyi~~ |
| ~~125.~~ | ~~050647~~ | ~~Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi~~ |

| | | |
|---|---|---|
| 126. | 050648 | Biotibbi texnologiya mühəndisliyi |
| 127. | 050649 | Ekologiya mühəndisliyi |
| 128. | 050650 | Yanğın təhlükəsizliyi mühəndisliyi [12] |
| 128-1. | 050651 | Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi[13] |
| 128-2. | 050652 | Kosmik texnologiyalar mühəndisliyi[14] |
| 128-3. | 050653 | Kosmik texnika mühəndisliyi |
| 128-4. | 050654 | Kosmik idarəetmə sistemləri mühəndisliyi |
| *128-5.*[15] | *050655* | *İnformasiya texnologiyaları* |
| *128-6.* | *050656* | *Sistem mühəndisliyi* |
| *128-7.*[16] | *050657* | *Sənaye mühəndisliyi* |
| *128-8.* | *050658* | *Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi* |
| *128-9.* | *050659* | *Şəhərsalma* |
| **7. KƏND TƏSƏRRÜFATI İXTİSASLARI QRUPU** | | |
| 129. | 050701 | Torpaqşünaslıq və aqrokimya |
| 130. | 050702 | Aqronomluq |
| 131. | 050703 | Zootexniklik |
| 132. | 050704 | Baytarlıq |
| 133. | 050705 | Yer quruluşu, torpaq və şəhər kadastrı |
| 134. | 050706 | Aqromühəndislik |
| 135. | 050707 | Balıqçılıq və balıqçılıq təsərrüfatı işi |
| 136. | 050708 | Meşəçilik |
| 137. | 050709 | Su bioehtiyatları və akvabitkilər |
| *137-1.* | *050710* | *Bitki mühafizəsi* |
| *137-2.* | *050711* | *Bağçılıq və tərəvəzçilik* |
| *137-3.* | *050712* | *Şərabçılıq*[17] |
| **8. SƏHİYYƏ, RİFAH VƏ XİDMƏT İXTİSASLARI QRUPU**[18] | | |
| 138. | 050801 | Müalicə işi* |
| 139. | 050802 | Pediatriya |
| 139. | 050803 | Hərbi həkim işi* |
| 140. | 050804 | Tibbi profilaktika* |

| | | |
|---|---|---|
| 141. | 050805 | Stomatologiya* |
| 142. | 050806 | Əczaçılıq |
| 143. | 050807 | Həkim yardımçısı |
| 145. | 050808 | Tibbi biologiya |
| 144. | 050809 | Bədən tərbiyəsi və idman |
| 145. | 050810 | Turizm və otelçilik |
| 146. | 050811 | Nəqliyyat servisi (nəqliyyat növləri üzrə) |
| 147. | 050812 | Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi[19] |
| 148. | 050813 | Sosial iş |
| *149.* | *050814* | *Məşqçi (idman növü üzrə)* |
| *150.* | *050815* | *Bədən tərbiyəsi və idmanda reabilitasiya* |
| *151.* | *050816* | *İdman menecmenti və kommunikasiya*[20] |

* Bu ixtisaslar üzrə həkim hazırlığı aparılır.[21]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 12 yanvar tarixli 8 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının**

**S İ Y A H I S I**

1. "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı"nın 2-5-ci sütunları çıxarılsın.

2. "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 17 may tarixli 82 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №5, maddə 331) 1-ci bəndinin ikinci abzası çıxarılsın.

3. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Magistr proqramlarının siyahısı haqqında" 1997-ci il 20 may tarixli 54 nömrəli və "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 30 iyun tarixli 119 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №6, maddə 440) 2-ci bəndinin ikinci abzası çıxarılsın.

4. "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 yanvar tarixli 8 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №1, maddə 87) 1-ci bəndinin ikinci abzası çıxarılsın.

5. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" 1997-ci il 9 yanvar tarixli 4 nömrəli və "Magistr proqramlarının siyahısı haqqında" 1997-ci il 20 may tarixli 54 nömrəli qərarlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 25 aprel tarixli 75 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, №4, maddə 389) 1-ci bəndinin ikinci abzası çıxarılsın.

6. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" 1997-ci il 9 yanvar tarixli 4 nömrəli və "Magistr proqramlarının siyahısı haqqında" 1997-ci il 20 may tarixli 54 nömrəli qərarlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 aprel tarixli 102 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, №4, maddə 372) 1-ci bəndi çıxarılsın.

7. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" 1997-ci il 9 yanvar tarixli 4 nömrəli və "Magistr proqramlarının siyahısı haqqında" 1997-ci il 20 may tarixli 54 nömrəli qərarlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 mart tarixli 56 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №3, maddə 311) 1-ci bəndi çıxarılsın.

8. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" 1997-ci il 9 yanvar tarixli 4 nömrəli və "Magistr proqramlarının siyahısı haqqında" 1997-ci il 20 may tarixli 54 nömrəli qərarlarına əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 10 may tarixli 72 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, №5, maddə 542) 1-ci bəndi çıxarılsın.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2009-cu il 12 yanvar tarixli 8 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının**

**S İ Y A H I S I**

1. "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarına əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 16 fevral tarixli 32 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №2, maddə 129).

2. "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarına əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 noyabr tarixli 198 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, №11, maddə 819).

3. "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı"na əlavə edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 5 aprel tarixli 58 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, №4 (II kitab), maddə 202).

4. "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 19 mart tarixli 38 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, №3, maddə 170).

5. "Ali və orta ixtisas təhsili istiqamətlərinin və ixtisaslarının siyahısı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 9 yanvar tarixli 4 nömrəli qərarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 aprel tarixli 40 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №4, maddə 289).

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 24 aprel 2009-cu il tarixli **70** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 04, maddə 287)**
2. 2 mart 2011-ci il tarixli **36** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 03, maddə 230)**
3. 18 noyabr 2011-ci il tarixli **188** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 1069)**
4. 5 aprel 2012-ci il tarixli **75** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 04, maddə 387)**
5. 6 avqust 2012-ci il tarixli **175** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 8 avqust 2012-ci il, № 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, №08, maddə 823**)
6. 24 dekabr 2012-ci il tarixli **314** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 26 dekabr 2012-ci il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 12, maddə 1378**)
7. 01 mart 2013-cü il tarixli **35** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 4 mart 2013-cü il, № 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 03, maddə 330**)
8. 04 iyun 2015-ci il tarixli **213** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 7 iyun 2015-ci il, № 121, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 786)**
9. 4 mart 2016-cı il tarixli **114** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 619)**
10. 22 fevral 2017-ci il tarixli **60** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 fevral 2017-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 2, maddə 313)**
11. 4 aprel 2017-ci il tarixli **120** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 7 aprel 2017-ci il, № 71, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №4 , maddə 607)**
12. 20 sentyabr 2017-ci il tarixli **379** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 22 sentyabr 2017-ci il, № 206, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №9 , maddə 1734)**
13. 15 mart 2018-ci il tarixli **100** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti 22 mart 2018-ci il, № 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 3, maddə 610)**
14. 11 fevral 2019-cu il tarixli **45** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 12 fevral 2019-cu il, № 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 2, maddə 343)**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

---

[1] 2 mart 2011-ci il tarixli **36** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 03, maddə 230)** ilə adında və 1-ci bəndində "**bakalavr pilləsi**" sözləri "**bakalavriat səviyyəsi**" sözləri ilə əvəz edilmişdir.

18 noyabr 2011-ci il tarixli 188 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 1069)** ilə adında və 1-ci hissəsində "**siyahısı**" sözləri "**Təsnifatı**" sözləri ilə əvəz edilmişdir.

[2] 11 fevral 2019-cu il tarixli 45 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 12 fevral 2019-cu il, № 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 2, maddə 343)** ilə 1-ci hissə ləğv edilmişdir.

[3] 2 mart 2011-ci il tarixli 36 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 03, maddə 230)** ilə adında "**bakalavr pilləsi**" sözləri "**bakalavriat səviyyəsi**" sözləri ilə əvəz edilmişdir.

18 noyabr 2011-ci il tarixli 188 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 1069)** adında "**siyahısı**" sözü "**Təsnifatı**" sözü ilə əvəz edilmişdir.

[4] 22 fevral 2017-ci il tarixli 60 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 fevral 2017-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 2, maddə 313)** ilə "1. Təhsil ixtisasları qrupu" bölməsinə "**21-1. 050122 Rəqs müəllimliyi**" hissəsi əlavə edilmişdir.

[5] 2 mart 2011-ci il tarixli 36 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 03, maddə 230)** ilə "2. Humanitar və sosial ixtisaslar qrupu" bölməsində "**Filologiya**" sözündən sonra "**(dil və ədəbiyyat göstərilməklə)**" sözləri əlavə edilmişdir.

[6] 01 mart 2013-cü il tarixli 35 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 4 mart 2013-cü il, № 49, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 03, maddə 330**) ilə "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın "2. Humanitar və sosial ixtisaslar qrupu" bölməsinə "**36. 050215 Kitabxanaçılıq və informasiya**" sözlərindən sonra "**36-1. 050216 Dövlət və ictimai münasibətlər**" hissəsi əlavə edilmişdir.

[7] 15 mart 2018-ci il tarixli 100 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti 22 mart 2018-ci il, № 63, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 3, maddə 610)** ilə "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın "2. Humanitar və sosial ixtisaslar qrupu" bölməsinə yeni məzmunda 36-2-ci hissə əlavə edilmişdir.

[8] 22 fevral 2017-ci il tarixli 60 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 fevral 2017-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 2, maddə 313)** ilə "3. Mədəniyyət və incəsənət ixtisasları qrupu" bölməsinə "44. 050308 Xoreoqrafiya sənəti" sözlərindən sonra **"(sahələr üzrə)**" sözləri əlavə edilmişdir.

[9] 04 iyun 2015-ci il tarixli 213 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 7 iyun 2015-ci il, № 121, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 06, maddə 786)** ilə "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın "4. İqtisadiyyat və idarəetmə ixtisasları qrupu" bölməsinə "**68-1. 050412 Davamlı inkişafın idarə edilməsi**" hissəsi əlavə edilmişdir.

[10] 6 avqust 2012-ci il tarixli 175 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 8 avqust 2012-ci il, № 175, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, №08, maddə 823**) ilə "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın "6. Texniki və texnoloji ixtisaslar qrupu" bölməsində "**Dəniz texnikası və texnologiyası**

**mühəndisliyi**" sözləri "**Gəmiqayırma və gəmi təmiri mühəndisliyi**" sözləri ilə, "**Dəniz texnikası və avadanlıqlarının istismarı mühəndisliyi**" sözləri "**Gəmi energetik qurğularının istismarı mühəndisliyi**" sözləri ilə, "**Gəmiçilik və gəmilərin hərəkətinin idarə edilməsi**" sözləri "**Dəniz naviqasiyası mühəndisliyi**" sözləri ilə əvəz edilmişdir.

[11] 4 mart 2016-cı il tarixli **114** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 619)** ilə "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın "6. Texniki və texnoloji ixtisaslar qrupu" bölməsinin "**110. 050632 İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi**" hissəsi ləğv edilmişdir.

[12] 24 aprel 2009-cu il tarixli **70** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 04, maddə 287)** ilə "Ali təhsilin bakalavr pilləsi ixtisaslarının (proqramlarının) siyahısı"nda **"127.050649 Ekologiya mühəndisliyi"** sözlərindən sonra **"128.050650 Yanğın təhlükəsizliyi mühəndisliyi"** sözləri əlavə edilmişdir və **"128-149"** rəqəmləri müvafiq olaraq **"129-150"** rəqəmləri hesab edilmişdir.

[13] 18 noyabr 2011-ci il tarixli **188** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 1069)** ilə "6. Texniki və texnoloji ixtisaslar qrupu" bölməsində "**128. 050650 Yanğın təhlükəsizliyi mühəndisliyi**" sözlərindən sonra "**128-1. 050651 Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi**" sözləri əlavə edilmişdir.

[14] 5 aprel 2012-ci il tarixli **75** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **( Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 04, maddə 387)** ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın "6. Texniki və texnoloji ixtisaslar qrupu" bölməsinə "**128-2. 050652 Kosmik texnologiyalar mühəndisliyi**", "**128-3. 050653 Kosmik texnika mühəndisliyi**" və "**128-4. 050654 Kosmik idarəetmə sistemləri mühəndisliyi**" hissələri əlavə edilmişdir.

[15] 4 mart 2016-cı il tarixli **114** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 03, maddə 619)** ilə "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın "6. Texniki və texnoloji ixtisaslar qrupu" bölməsinə yeni məzmunda 128-5-ci və 128-6-cı hissələr əlavə edilmişdir.

[16] 4 aprel 2017-ci il tarixli **120** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 7 aprel 2017-ci il, № 71, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №4 , maddə 607)** ilə "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın "6. Texniki və texnoloji ixtisaslar qrupu" bölməsinə yeni məzmunda 128-7-ci, 128-8-ci və 128-9-cu hissələr əlavə edilmişdir.

[17] 20 sentyabr 2017-ci il tarixli **379** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 22 sentyabr 2017-ci il, № 206, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №9 , maddə 1734)** ilə "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın "7. Kənd təsərrüfatı ixtisasları qrupu" bölməsinə yeni məzmunda 137-1-ci, 137-2-ci və 137-3-cü hissələr əlavə edilmişdir.

[18] 2 mart 2011-ci il tarixli **36** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 03, maddə 230)** ilə "8. Səhiyyə, rifah və xidmət ixtisasları qrupu" bölməsində "**139. 050802 Pediatriya**" və "**145. 050808 Tibbi biologiya**"

rəqəmləri və sözləri çıxarılmışdır, "**140-144**" və "**146-150**" rəqəmləri müvafiq olaraq "**139-143**" və "**144-148**" rəqəmləri hesab edilmişdir.

24 dekabr 2012-ci il tarixli **314** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 26 dekabr 2012-ci il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 12, maddə 1378**) ilə "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın "8. Səhiyyə, rifah və xidmət ixtisasları qrupu" bölməsindən "**050801 Müalicə işi***", "**050803 Hərbi həkim işi*", "050804 Tibbi profilaktika***", "**050805 Stomatologiya***" sözləri çıxarılmışdır.

[19] 18 noyabr 2011-ci il tarixli **188** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 11, maddə 1069)** ilə "8. Səhiyyə, rifah və xidmət ixtisasları qrupu" bölməsindən "**050812 Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi**" sözləri çıxarılmışdır.

[20] 22 fevral 2017-ci il tarixli **60** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 fevral 2017-ci il, № 42, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 2, maddə 313)** ilə "8. Səhiyyə, rifah və xidmət ixtisasları qrupu" bölməsinə "**149. 050814 Məşqçi (idman növü üzrə)**", "**150. 050815 Bədən tərbiyəsi və idmanda reabilitasiya**" və "**151. 050816 İdman menecmenti və kommunikasiya**" hissələri əlavə edilmişdir.

[21] 2 mart 2011-ci il tarixli **36** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 03, maddə 230)** ilə "8. Səhiyyə, rifah və xidmət ixtisasları qrupu" bölməsində "**Müalicə işi**", "**Hərbi həkim işi**", "**Tibbi profilaktika**", "**Stomatologiya**" sözlərindən sonra "*" işarəsi və cədvəldən sonra "*** Bu ixtisaslar üzrə həkim hazırlığı aparılır.**" cümləsi əlavə edilmişdir.

24 dekabr 2012-ci il tarixli **314** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 26 dekabr 2012-ci il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, № 12, maddə 1378**) ilə "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın "8. Səhiyyə, rifah və xidmət ixtisasları qrupu" bölməsinin cədvəlin sonundan **"*Bu ixtisaslar üzrə həkim hazırlığı aparılır**" sözləri çıxarılmışdır.